# "Əsrin müqaviləsi" bizim birlikdə çalışaraq nələrə nail ola biləcəyimizin sübutudur"

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə





Hörmətli cənab Prezident!

Azərbaycanı mühüm enerji təchizatçısına çevrilməyə kömək etmiş "Əsrin müqaviləsi"nin imzalanmasının 30-cu ildönümü münasibətilə Sizi və Azərbaycan xalqını təbrik etməkdən məmnunluq duyuram.

Azərbaycanın COP29-a evsahibliyi edəcəyi bu ildə həmin tarixin qeyd olunması xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın qlobal enerjiyə keçid ilə bağlı sadiqliyi ölkənizin enerji sektorunda etibarlı tərəfdaş kimi onilliklər ərzində sürən tarixinə əsaslanır.

Biz Azərbaycanın öndə gedən rolunu gücləndirə və regionu transformasiya edə biləcək bərpaolunan enerjidən istifadə və "yaşıl enerji"nin ixracı marşrutlarının inkişaf etdirilməsinə dair səylərinizi alqışlayırıq.

"Əsrin müqaviləsi" bizim birlikdə çalışaraq nələrə nail ola biləcəyimizin sübutudur.

Bugünkü telefon danışığımız zamanı qeyd etdiyim kimi, Amerika Birləşmiş Ştatları əməkdaşlığımızı genişləndirmək, qlobal enerji keçidi və Azərbaycanın enerji gündəliyi daxil olmaqla, müxtəlif vacib məsələlər üzrə birgə çalışmağa hazırdır.

*Hörmətlə,*

***Entoni BLİNKEN,***
***Amerika Birləşmiş Ştatlarının Dövlət katibi***

Azərbaycan.- 2024.- 22 sentyabr (№ 207).- S.1.